# UNEC-də QONAQ ALİMİN STATUSU VƏ FƏALİYYƏTİ HAQQINDA

## Q A Y D A L A R

**Məqsəd və əhatə dairəsi**

1. Bu Qaydalar, UNEC-də müəyyən müddət üçün qonaq statusunda çalışan alimlərin fəaliyyətinin əsaslarını müəyyən edir.

2. Bu Qaydalar, qonaq alim ("visiting scholar") statusunda müəyyən müddət UNEC-in fakültə, institut, mərkəz, kafedra və ya departamentlərdə akademik araşdırma və fəaliyyətlər həyata keçirəcək şəxslərin UNEC-ə qəbulu, onların hüquq, vəzifə və məsuliyyətləri ilə bağlı müddəaları əhatə edir.

3. Bu Qaydalar, UNEC-in Nizamnaməsi əsasında hazırlanmışdır.

**Əsas anlayışlar**

4. Bu Qaydalarda göstərilən:

a) Məsləhətçi alim – qonaq alimin UNEC-ə qəbulu və UNEC-də fəaliyyəti zamanı onunla UNEC arasındakı ünsiyyət prosesini koordinasiya etmək üçün təyin edilən UNEC-in tam ştat çalışan alimini;

b) Qonaq alim – elmi dərəcəyə sahib olan, ölkə xaricindən və ya ölkə daxilindən UNEC-ə müvəqqəti çalışmaq üçün gələn alimi;

c) Dəvətli qonaq alim – UNEC-in xüsusi dəvəti əsasında və nəqliyyat, yaşayış və digər xərcləri UNEC tərəfindən təmin edilmək şərti ilə gələn qonaq alimi nəzərdə tutur.

d) Fəliyyət planı – qonaq alimin UNEC-də planlaşdırılan fəaliyyətlərini özündə əks etdirən razılaşdırılmış sənəddir. Sənəd, qonaq alimin özü, məsləhətçi alim və təhkim olunduğu müvafiq akademik strukturun rəhbəri tərəfindən imzalanaraq, təsdiq edilir.

**Qonaq alimin UNEC-ə qəbulu**

5. Bu Qaydalarda nəzərdə tutulan qonaq alimlərin UNEC-in müvafiq akademik strukturlarında akademik fəaliyyətə qəbul edilmələri müraciət və ya UNEC-in xüsusi dəvəti çərçivəsində həyata keçirilir.

6. Müraciət edən şəxslə bağlı qiymətləndirmə müraciətin edildiyi akademik strukturun rəhbəri və müvafiq prorektor tərəfindən aparılır. Qiymətləndirmənin müsbət olması halında müvafiq akademik strukturun rəhbəri və ya müvafiq prorektor müraciət edən alimin UNEC-ə qonaq alim statusunda qəbul edilməsi ilə bağlı UNEC Rektoruna təqdimat yazır. Təqdimatda qonaq alimin UNEC-də fəaliyyətə başlama tarixi və fəaliyyətini bitirmə tarixi, hansı fəaliyyətləri həyata keçirəcəyi, həyata keçirəcəyi fəaliyyətlərin UNEC-ə verəcəyi töhfələr və məsləhətçi alim haqqında məlumatlar öz əksini tapmalı və təqdimata qonaq alimin müraciət məktubu, yenilənmiş tərcümeyi-halı (CV) və fəaliyyət planı əlavə edilməlidir.

7. UNEC-də qonaq alim ən çox bir il müddətinə qəbul edilir. Ancaq müvafiq akademik strukturun tövsiyəsi və Rektorun qərarı əsasında bu müddət uzadıla bilər.

**Qonaq alimin qiymətləndirilməsi**

8. Qiymətləndirmədə qonaq alim statusunda UNEC-ə qəbul ediləcək şəxslərin UNEC-in tədris və tədqiqat fəaliyyətlərinin inkişafına töhfə verə bilmə potensiallarına sahib olmaları əsas götürülür.

9. Ölkə xaricində və ya ölkə daxilində başqa bir universitet və ya qurumda çalışan, elmi dərəcəsi olan, tədqiqatları ilə öz sahələrinə töhfələr verən və UNEC tərəfindən müəyyən edilən sahələrdə və ya ixtisaslar üzrə milli və beynəlxalq tədqiqatlar, elmi fəaliyyətlər həyata keçirən şəxslər UNEC-ə qonaq alim statusunda qəbul edilirlər.

10. Qonaq alimlər, UNEC-dəki məsləhətçi alimin koordinatorluğunda müəyyən məqsəd və fəaliyyət planı çərçivəsində təkbaşına və ya UNEC alimləri ilə birgə akademik fəaliyyətlər həyata keçirmək məqsədilə qəbul edilirlər.

**Qonaq alimin hüquq və vəzifələri**

11. Qonaq alimin fəaliyyət planında aşağıdakı istiqamətlərdən biri və ya bir neçəsi üzrə fəaliyyətlər nəzərdə tutula bilər:

a) "Web of Science" və ya "Scopus"da indekslənən elmi nəşrlərdə UNEC-in adından ən azı bir məqalə çap etmək və ya çap üçün qəbul almaq;

b) UNEC-də dərs demək, tədris proqramlarını təkmilləşdirmək, elmi konfrans və seminarlarda iştirak etmək kimi akademik fəaliyyətlər göstərmək;

c) Məsləhətçi alim ilə birlikdə və ya onun koordinatorluğunda bir və ya daha çox UNEC alimi ilə və ya təkbaşına elmi tədqiqatlar həyata keçirmək, UNEC-in tərəfdaş olduğu birgə tədqiqat layihələrində iştirak etmək.

12. UNEC, dəvətli qonaq alimlər qarşısında icrası zəruri olan öhdəliklər müəyyən edə bilər.

13. Qonaq alimin UNEC-dəki fəaliyyətləri çərçivəsində ortaya çıxan bütün müəllif hüququ məsələləri müvafiq qanunvericiliklə tənzimlənir.

14. Qonaq alim, UNEC-də fəaliyyət göstərdiyi müddət ərzindəki tədris və tədqiqat işlərində UNEC-in adını qeyd etməsi zəruridir.

15. Qonaq alim, UNEC-dəki fəaliyyətini başa vurmadan ən azı bir həftə öncə gördüyü işlərlə bağlı qısa hesabatını və digər zəruri materialları UNEC tərəfindən təyin edilən məsləhətçi alimə təqdim etməlidir.

16. Qonaq alim, UNEC-də fəaliyyət göstərdiyi müddət ərzində UNEC-in rəsmi internet səhfəsində və bütün digər yayınlarında "qonaq alim" kimi təqdim edilir və onlara müvəqqəti UNEC vəsiqəsi verilir.

17. UNEC-in bütün tam ştatlı alimlərinə təmin edilən kitabxana və labaratoriyalardan istifadə, yaradılan məlumat bazalarına çıxış, UNEC rəsmi elektron poçt ünvanı kimi imkanlar, mümkün ölçüdə qonaq alim üçün də təmin edilir. Zəruri hallarda qonaq alimə UNEC-də istifadə edə biləcəyi xüsusi iş otağı da verilə bilər.

18. Dəvətli qonaq alimlərin nəqliyyat, yaşayış və digər zəruri xərcləri UNEC-ə aiddir. Müraciət yolu ilə qonaq alim kimi qəbul edilən şəxslərin isə zəruri hallarda xərclərinin müəyyən hissəsinin UNEC tərəfindən qarşılanması məsələsinə baxıla bilər.

19. "Nufuzlu elmi nəşrlərdə əsərləri çap edilən UNEC əməkdaşlarının mükafatlandırılması haqqında qaydalar" UNEC-in qonaq alimlərinə də şamil olunur.

**Yekun müddəalar**

20. Qonaq alimdən UNEC-in gözləntiləri, açıq şəkildə və ilk ünsiyyətdən etibarən şəxsən özünə bildirilir.

21. Qonaq alim ilə bütün əlaqəni UNEC tərəfindən təyin edilən məsləhətçi alim qurur. Məsləhətçi alim, qonaq alimin UNEC-ə adaptasiyası ilə ilk bir həftə ərzində birbaşa məşğul olur. Məsləhətçi alim, qonaq alimi universitetdaxili bütün zəruri prosedurlar haqqında məlumatlandırır və onun müvafiq strukturlarla əlaqəsini qurur.

22. Qonaq alimin fəaliyyət planının uğurla icrasına görə UNEC-in müvafiq akademik strukturu məsuliyyət daşıyır. Qeyd edilən müvafiq akademik struktur, qonaq alimin viza, rəsmi icazə, logistika, yaşayış yeri ilə təminat, bələdçilik kimi məsələlərdə ehtiyac duyduğu xidmətlərin təmin edilməsini koordinasiya edir.

23. Qonaq alimin UNEC-də fəaliyyəti başa çatdıqda, UNEC-in digər əməkdaşları kimi işdən çıxma ilə bağlı müvafiq əməliyyatları həyata keçirməsi zəruridir. Bununla bağlı məsləhətçi alim zəruri işlərdə ona yardımçı olur.

24. Qonaq alimlərin xərclərinin universitetdən kənar mənbələrdən təmin edilməsinə üstünlük verilir. Zəruri hallarda UNEC Rektorunun təklifi və UNEC Elmi Şurasının qərarı ilə bu məqsədlə müəyyən büdcə ayrıla bilər.

25. “Erasmus+”, “Mevlana” kimi beynəlxalq mübadilə proqramları çərçivəsində gələn qonaq alimlər üçün müvafiq proqramların nəzərdə tutduğu qaydalar tətbiq edilir.

26. Bu Qaydalar UNEC Elmi Şurası tərəfindən qəbul edildikdən sonra qüvvəyə minir. Qaydalar əlavə və dəyişikliklər UNEC Elmi Şurasının qərarı ilə həyata keçirilir.